

# Şeirdir həyatda sərvətim mənim...

**Bu misralar Əməkdar incəsənət xadimi, şairə Mədinə Gülgünə məxsusdur. Masallı rayon Mərkəzi Kitabxanasında zəngin yaradıcılığı ilə ürəklərə məlhəm olan görkəmli, unudulmaz şairin anadan olmasının 100 illiyi münasibətilə tədbir olub.**

"Şeirdi həyatda sərvətim mənim" adlı tədbirdə çıxış edən kitabxana əməkdaşları Şəmsurə Nəsirova və Arzu Hüseynova Mədinə Gülgünün Azərbaycan poeziyasındakı mühüm yerindən, zəngin yaradıcılıq yolundan ətraflı danışıblar. Qeyd olunub ki, şairənin əsərlərində Vətənə sevgi, azadlıq ideyaları, ana məhəbbəti və humanizm əsas mövzular kimi bu gün də aktuallığını qoruyur.